AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ

S Ə R Ə N C A M

№ 84

Bakı şəhəri 16 mart 2022-ci il

Xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı
Azərbaycan Milli Elmlər Akademiyasının iş rejimində
tətbiq edilən məhdudiyyətlərin ləğv edilməsi haqqında

Xüsusi karantin rejimində koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizə tədbirləri çərçivəsində tətbiq edilən müəyyən məhdudiyyətlərin aradan qaldırıldığını və yoluxma sayında azalmanın müşahidə olunduğunu nəzərə alaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli 10/677 nömrəli məktubunun 2 nömrəli əlavəsinə uyğun olaraq dövlət orqanlarında (qurumlarında) tətbiq edilən iş rejiminin (saatlarının) ləğv edilməsi barədə Azərbaycan Respublikası Baş nazirinin 2022-ci il 12 mart tarixli 10/121 nömrəli məktubunu nəzərə alaraq:

1. Azərbaycan Milli Elmlər Akademiyasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli 10/677 nömrəli məktubunun 2 nömrəli əlavəsinə uyğun olaraq tətbiq edilən iş rejimi (saatları) 28 mart 2022-ci il tarixindən ləğv edilsin.
2. Azərbaycan Milli Elmlər Akademiyasında aşağıdakı iş rejimi təsdiq olunsun:
   2.1. saat 09.00-dan 18.00-dək;
   2.2. nahar fasiləsi saat 13.00-dan 14.00-dək.
3. AMEA Rəyasət Heyəti aparatının rəhbərinə (filologiya üzrə fəlsəfə doktoru, dosent Seyfəl Həsənov), AMEA Rəyasət Heyəti aparatının Kadrlar şöbəsinə (Natiq Mehdiyev) və AMEA-nın elmi müəssisə və təşkilatlarının rəhbərlərinə tapşırılsın ki, bu sərəncamın icrasından irəli gələn məsələləri həll etsinlər.

AMEA-nın prezidenti vəzifəsini icra edən akademik Arif Həşimov

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
RƏYASƏT HEYƏTİ
SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ
APARAT